# İnklüziv təhsil bütün uşaqlar üçün təhsildir

**Gülşən Eminova**
*ADPU-nun İbtidai təhsilin pedaqogika və metodikası kafedrasının baş müəllimi*
**E-mail:** eminovagulsen@rambler.ru

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova,
p.ü.f.d. L.X. Əliyeva

**Açar sözlər:** inklüziv, uşaq, hüquq, təlim, sosial, model
**Ключевые слова:** включительно, ребенок, закон, обучение, социальная, модель
**Key words:** inclusive, child, law, training, social, model

İnklüziv təhsil əlilliyi olan uşaqların, eləcə də digər səbəblərdən təhsildən məhrum olan bütün uşaqların öz həmyaşıdları ilə birgə ümumtəhsil məktəblərində eyni sinifdə təhsilə cəlb edilməsidir. Latın dilində inklüziya "daxiletmə" deməkdir. Ümumtəhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. İnklüziv təhsil sisteminin əsasını "Məktəb hamı üçün" prinsipi təşkil edir. İnklüziv sinif mühitində təlim hər bir uşağın başqaları ilə birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutur. Müxtəlif qabliyyətlər,irqi və cinsi fərqlər bu hüquqa təsir göstərmir. Uşaqların hamısı öz qabliyyət və ehtiyaclarından asılı olmayaraq sinifin tam hüquqlu üzvü sayılır. İnklüziv təhsilin bu konsepsiyasına görə bütün uşaqlar dəyərlidir və cəmiyyətin fəal üzvüləridir.

İbtidai təhsil uşaqların xüsusi ehtiyaclarının müəyyənləşməsindən başlanır. Müvafiq təlim strategiyalarından isdifadə edilməsi əlilliyi olan uşaqları sosial, pisixi, fiziki və konqunitiv inkişafa doğru aparmaqla onu sinif kollektivinin inteqrativ bir üzvünə çevirir. İnklüziv təlim sinif mühitində hər bir uşağın başqaları ilə birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutaraq irqindən, cinsi fərqlərdən eləcə də müxtəlif qabiliyyət və xüsusi fərqlər bu hüquqa təsir etmir. Ehtiyac və öz qabiliyyətlərindən asılı olmayaraq şagirdlərin hər birisi sinfin tamhüquqlu üzvü sayılır. Bütün şagirdlər keyfiyyətli təhsil almaq hüququna əsaslanaraq bir sıra beynəlxalq konvensiyalar, həmçinin milli qanunvericilik çərçivələri müvafiq ölkələrdə inklüziv təhsilin tətbiqini təmin edir. Həm beynəlxalq, həm də Azərbaycan üçün aidiyyatı olan insan və uşaq hüquqlarına aid sənədlər aşağıdakılardır.

— İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1948
— BMT-nin "Uşaq hüquqları haqqında"Konvensiyası, 1989
— BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası, 2006
— Azərbaycan Respublikasının Konstitusiyası, 1995
— "Təhsil haqqında"Azərbaycan Respublikasının Qanunu, 2009
— "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"

İnklüziv təhsil əlilliyi olan uşaqların yaşıdlarından və cəmiyyətdən təcrid olunmalarından xilas edərək, onların inkişafına, həyata inteqrasiyasına və hüquqlarının təmin olunmasına kömək edir. Əlilliyi olmayan uşaqlarda isə öz həmyaşıdlarına və yaxud siniflərində olan əlilliyi olan şəxslərə qarşı mərhəmət, qayğı hisslərinin formalaşmasına səbəb olur.

"Təhsildə ehtiyaclar" konsepsiyası və xüsusi təhsil ehtiyacı termini ilk dəfə 1981-ci ildə İngiltərədə işlənmişdir. Bu konsepsiyadan əvvəl uşaqların tibbi diaqnozlarına diqqət yetirilir və onların inkişaflarına təsir etmək üçün tibbi terminlərdən istifadə olunurdu (1). Ənənəvi tibbi yanaşma və yaxud fərdi yanaşma əlilliyi olan uşaqların məktəbdə öyrənmək və səmərəli şəkildə iştirak etmələrini məhdudlaşdırırdı.

Dünyada əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunmasının dəstəklənməsi ilə bağlı təcrübələrdə bir neçə dəfə dəyişikliklər olmuşdur. 1970-ci ildən başlayaraq Funksioanallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından (FƏSBT) istifadəyə keçiddir. Bu keçid xəstəliklərin insanların həyatına təsirlərini anlamaq zərurətinin başa düşüldüyünü göstərir. 2001-ci ildən rəsmi şəkildə Ümumdünya Səhiyyə Assambleyası bu təsnifatı təsdiq etdi və üzv dövlətləri onun müvafiq hallarda öz tədqiqatlarında, müşahidələrində və hesabatlarında tətbiq etməyə çağırdı. FƏSBT psixo-sosial modelə əsaslanır. O, özündə tibbi və sosial modeli birləşdirir. Sosial modelə əsasən inklüziv təhsil şəraitində təhsil alan sağlamlıq imkanları məhdud olan uşaqlar öz həmyaşıdlarını təqlid etməklə yeni bacarıqlar, sosial və hayati bacarıqlara yiyələnməklə, cəmiyyətə daha yaxşı inteqrasiya olurlar. Eyni zamanda əliliyi olmayan uşaqlar tərəfindəndə fərqliliyə pozitiv münasibət formalaşır.

Təlim prosesində çətinlik çəkən uşağın inklüziv siniflərdə təhsil alması qərarı verildikdə uşağın tibbi diaqnozu deyil, həm də zəif və güclü tərəfləri nəzərə alınmalı və onun üçün vacib olan dəstəyin nədən ibarət olması dəqiqləşdirilməlidir. İnklüziv təhsil sahəsində tədqiqat aparan mütəxəssisləri qeyd edirlər ki, hər hansı çətinliyi olan uşağın təhsillə bağlı ehtiyacları təkcə onun sağlamlığının inkişaf səviyyəsindən asılı olmur.

Uşağın ailəsinin vəziyyəti, imkanları, dövlət tərəfindən verilən təminat, mütəxəsisslər (loqoped, fizioterapevt) müəllimlə uşaq arasında yaranan münasibətlər əlilliyi olan uşaqların təhsildə uğruna təsir göstərən əsas faktorlardır. Buna görədə təhsil müəssisəsində inklüziv təhsil barəsində qərar verildikdə uşağın diaqnozunun "çətin" olub olmamasına yox, həm də inkişaf xüsusiyyətlərinə və onlara təsir göstərən faktorlara kompleks şəkildə baxılmalıdır.

İnklüziv təhsil anlayışı insan hüquqları prinsipinə əsaslanır. İnsan Hüquqları Konvensiyasına görə dövlətlər elə bir təhsil sistemi qurmalıdırlar ki, təhsialma hüququ hər bir uşağın hüququ olaraq qorunsun və təmin edilsin.

Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyası 1992-ci ildə imzalanıb və respublikamızda yaşayan hər bir uşaqın təhsilalma hüququnu öz üzərinə götürmüşdür. Ölkəmizdə inklüziv təhsil sisteminin beynəlxalq normalara uyğun olaraq inkişaf etdirilməsi üçün konkret proqramlar icra olunur.

Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin 14 dekabr 2017-ci il tarixli sərancamı ilə təsdiqlədiyi "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"da sağlamlıq imkanları məhdud şəxslərin bütün pillələri üzrə digər əlilliyi olmayan şəxslərlə bərabər səviyyədə təmin etməyə onların təhsili və məşğulluğu üçün maneəsiz mühit yaratmağa xidmət edir.

Dövlət Proqramı özündə 5 əsas vəzifəni normativ–hüquqi aktların təkmilləşdirilməsi, infrostruktur və məzmununun şəxslərin ehtiyaclarına, pedaqoji kadrların hazırlanması və əlavə təhsilə cəlb olunması məlumat bazasının yaradılmas, bu sahədə adiyyatı dövlət qurumları ilə birlikdə təbliğat və ictimai marifləndirmənin aparılmasını ehtiva edir.

Dövlət proqramının həyata keçirilməsi nəticəsində əlilliyi olan şəxslərin təhsil inkişafında qarşıya qoyulmuş məqsəd və gözlənilən nəticələr aşağıdakılar kimi müəyyənləşdirilmişdir.

— Təhsilin bütün pillələri üzrə təhsil müəsissələrinin infrostrukturunun sağlamlıq imkanları məhdud olan şəxslərin ehtiyaclarına uyğunlaşdırılması nəzərə alınaraq təmin

ediləcək;

— Informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud olan şəxslər üçün informasiya əldə etmək imkanları genişlənəcək;

— Məktəbəqədər, ümümi və ilk peşə ixtisas təlimi və təhsili üzrə təhsil proqramlarında sağlamlıq imkanları məhdud olan şəxslərin təhsildən istifadə imkanları ilə digər əlilliyi olmayan şəxslərlə bərabər səviyyədə təmin edən dəyişikliklər yaranacaq;

— Sağlamlıq imkanları məhdud olan şəxslərin inklüziv təhsilə cəlb olunmaları üzrə məlumat bazası yaradılacaq;

— Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilə cəlb olunması imkanlarının qiymətləndirilməsində yeni qaydaların tətbiqi;

— Təhsil hüquqları barədə sağlamlıq imkanları məhdud olan şəxslərin məlumatlılıq səviyyəsi artacaq.

Hal-hazırda inklüziv təhsilin tətbiqini dəstəkləmək üçün "İnklüziv təhsil üzrə müəllim inkişaf proqramları"hazırlanıb. Proqramın məqsədi:

— Azərbaycanda müəllimlərin inklüziv sinif otaqlarında dərs keçmək üçün səriştələrinin artırılması;

— Mövcud resursları bir araya toplamaq;

— Vəsaitlərin isdifaçi üçün rahatlığını artırmaq məqsədilə məzmunun sadələşdirilməsi;

— Məktəblərdə praktik tətbiqi stimullaşdırılması.

İnklüziv təhsil sahəsində Müəllim İnkişaf Proqramları Azərbaycanda inklüziv təhsillə bağlı dövlət proqramının icrasına dəstək göstərir.

Materiallar aşağıdakı iki layihə çərçivəsində hazırlanaraq Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNİCEF-in Azərbaycandakı nümayəndəliyi və "Regional İnkişaf" İctimai Birliyinin rəhbərliyi və maliyyə dəstəyi ilə həyata keçirilir:

1-ci layihə: Azərbaycanda əlilliyi olan uşaqlar üçün kefiyyətli inklüziv təhsilin genişləndirilməsi;

2-ci layihə:Müəllimlərin inklüziv təhsilə hazırlığın təmin edilməsi.

İnklüziv təhsil üzrə Müəllim İnkişaf Proqramları üç əsas hədəf qrupu üçün nəzərdə tutularaq həyata keçirilir.

1. Ümumi təhsil müəllimləri.
2. Xüsusi pedaqoqlar.
3. İlkin pedaqoji təhsil alan tələbələr.

Proqramın əsası təhsilalana yönələn, fəal və təcrübi fəaliyyətə əsaslanan yanaşmanı dəstəkləyir, konsepsiyaların praktik tətbiqi və refleksiya vasitəsilə müəllimləri və ilkin pedaqoji təhsil alan tələbələri istiqamətləndirir.

İnklüziv təhsil prosesinin şərtləri:

— İnklüziv təhsil hər bir şagirdin, məktəbin akademik və sosial həyatında iştirak səviyyəsini yüksəlməsi.

— Məktəbin daxilində baş verən bütün proseslərdən təcrid olmaması

— Hər bir şagirdin öz fərdi xüsusiyyətləri və ehtiyacları ilə birlikdə qəbul etmək məqsədilə qaydaların,normaların və mədəniyyətin uyğunlaşmasını tələb edən bir prosesdir.

— İnklüziv təhsil ancaq həssas təbəqədən olan qruplara məsələn, əlilliyi olan uşaqlara deyil bütün məktəblərə aid olması.

— İnklüziv təhsil – təhsilin yalnız şagirdlər üçün yox, həm də işçilər üçün səmərəliləşdirilməsini nəzərdə tutur.

— İnklüziv təhsil fəaliyyət göstərdiyi icma ilə məktəb arasında sıx əməkdaşlıq

münasibətlərinin qurulmasını nəzərdə tutur.

İnklüziv təhsilin səmərəli həyata keçirilməsi üçün vacib olan şərtlər:

— binanın və nəqliyyatın uyğunlaşdırılması;

— sinif mühitinin uyğunlaşdırılması;

— tədris proqramlarının rəngarəngliyinin təmin edilməsi,müxtəlif yanaşma üsullardan istifadə edilməsi;

— əlillik haqqında danışarkən məktəb heyyəti və uşaqlar tərəfindən düzgün sözlərdən istifadə edilməsi;

— məktəbin tibbi nəzarət sisteminin yaradılması;

— əliliyi olan insanların işə cəlb edilməsi;

— müşahidəçilər şurasının və idarəetmə komisiyasının yaradılması.

İnklüziv proqramın üstünlükləri

Əlilliyi olan uşaqların:

- Öz yaşıdları ilə məqsədəuyğun şəkildə təmasda olmalrı hesabına koqnitiv, nitq və emosianal inkişafı artır.
- Yaşıdları, xüsus tələbləri olan uşaqlar üçün model rolunu oynayırlar.
- Yeni bacarıq və vərdişləri mənimsəməsi və onlardan istifadə etməsi funksional olaraq həyata keçirilir.
- Təhsili uşaqların güclü cəhətlərinə, qabiliyyətlərinə və maraqlarına səmtlənməklə aparılır.
- Əlilliyi olmayan yaşıdları ilə dostluq münasibətləri yaratmaq və ictimai həyatda iştirak etmək imkanı yaranır.

Əlilliyi olmayan uşaqlar:

- ➢ Təbii tərzdə təhsil alır və insanlar arasındakı fərqlərə tolerant tərzdə yanaşırlar.
- ➢ Özlərindən fərqli olan insanlarla dostluq münasibətləri yaratmaq üçün genişlənməkdə olan imkanlara malik olurlar.
- ➢ Əməkdaşlıq etmələri üçün stimullar əldə edirlər.
- ➢ Yaradıcılıq, ixtiraçılıq qabiliyyəti və digər insanların kədərinə şərik olma hissini inkişaf etdirirlər.

Ailələr üçün:

- Ailələr digər valideynlər tərəfindən dəstəklənirlər.
- Tədris məqsədlərinin və uşaqların qarşısında qoyulan məsələlərin müəyyənləşdirilməsində valideynlər fəal iştirak edirlər.
- Bütün valideynlər məktəb ictimayyətinin bir hissəsinə çevrilirlər.

Müəllimlər və digər mütəxəssislər üçün:

- ➢ Müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini daha yaxşı anlayırlar.
- ➢ Müəllimlər uşaqların fərdiyyətləri nəzərə alınmaqla inkişaf etdirilməsinə səmərəli kömək göstərilməsinə imkan verən pedaqoji metodikaları, strategiyaları mənimsəyirlər.
- ➢ Mütəxəssislər (tibb işçiləri, xüsusi profilli pedaqoqlar və başqaları) uşaqları daha dolğun şəkildə nəzərdən keçirməyə başlayır və problemlərə onların gözü ilə baxmağı öyrənirlər.

Cəmiyyət üçün:

- Cəmiyyətin üzvlərində insanlar arasındakı fərqlərin yeni səviyyədə anlaşılması və onlara münasibətdə tolerantlıq formalaşır.

İnklüziv proqramlar qorxu hissini azaldır və dostluq, hörmət və qarşılıqlı anlaşmanın təsbit olunmasına kömək edir.

İnklüziv təhsil  xüsusi təhsil ehtiyacları və digər səbəbdən yaranan maneələrə baxmayaraq bütün uşaqların onlara yaxın ərazidə yerləşən məktəblərdə keyfiyyətli təhsilə cəlb edilməsi və təlimdə nailiyyət əldə etmələri üçün lazımı dəstəyin göstərilməsi və şəraitin yaradılmasını nəzərdə tutur.

İnklüziv təhsil nədir dedikdə:

Təhsil ənənələrinin,siyasətlərinin və təcrübələrinin cinsindən, əlilliyinin olub-olmamasından, etnik, dil, dini mənsubiyyətindən və ya maliyyə vəziyyətindən, yaş qrupundan, sağlamlıq, miqrasiya, qaçqınlıq və ya zəiflik yaradan digər çətinliklərlə üzləşməsindən asılı olmayaraq, müxtəlif qruplardan olan, eləcə də digər səbəblərdən təhsildən məhrum olan bütün uşaqların öz həmyaşıdları ilə birgə ümumtəhsil məktəblərində eyni sinifdə təhsilə cəlb edilməsidir.

Fərqli situasiyalarda təhsilalanların kənarda qalmasına səbəb olan əngəlləri müəyyən etmək və  aradan qaldırmaq üçün göstərilən davamlı səylərdir.

Bütün maraqlı tərəflərin (müəllimlər, təhsilalanlar, valideynlər, icma  üzvləri, dövlət siyasətinə məsul şəxslər, yerli rəhbərlər, QHT-lər və s.) iştirak etməli olduğu bir prosesdir.

**Məqalənin aktuallığı.** Əlilliyi olan uşaqların, əlilliyi olmayan uşaqlarla birgə ümumtəhsil məktəblərində eyni sinifdə təhsilə cəlb edilməsi inklüsiv təhsil hesab olunur və bu, daim cəmiyyəti, aidiyyatı dövlət və qeyri-dövlət qurumlarını narahat edən məsələlərdəndir. Məqalə də bu mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramının əsas istiqamətləri şərh olunur, proqramdan irəli gələn, bilavasitə təhsilin inkişafında qarşıya qoyulan məqsəd və gözlənilən nəticələr açıqlanır, eləcə də Müəllim İnkişaf Proqramlarının Azərbaycanda inklüziv təhsillə bağlı dövlət proqramının icrasına dəstək məqasədilə həyata keçirdiyi layihələrdən söhbət açılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ü.Mikayılova və b. ”İnklüziv təhsil” Bakı 2011.

2. Peter Crimes, Marieke Stevens, Arlene dela Cruz, Trica Merkado, Kaisa Ligaya Sol Cruz. “İnküziv təhsil üzrə müəllim inkişafı proqramları”. 2019.

3. M.Əliyev.”İnklüziv təhsil”. (Məlumat kitabçası). Bakı, 2018.

4.Ü.Mikayılova, L.Şərəfxanova və b. ”İnklüziv təhsil”. (Metodik vəsait). Bakı, 2011.

**Г. Эминова**

## Инклюзивное образование — это образование для всех детей

## Резюме

Инклюзивное образование помогает детям с ограниченными физическими возможностями интегрировать в жизнь и обеспечивать свои права, спасая их от

изоляции от общество и сверстников.

**G. Eminova**

## Inclusive education is education for all children

## Summary

Inclusive education helps children with disabilities to integrate into life and ensure their rights from being isolated from their coevals and society.

**Redaksiyaya daxil olub:** 20.05.2019